**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**TƏHMƏZOVA ELMİRA ƏLİSEYRAN QIZI**

# NİZAMİ GƏNCƏVİNİN DÜNYA GÖRÜŞÜNDƏ SOSİAL-MƏDƏNİ VƏ ƏXLAQİ DƏYƏRLƏR

İxtisas: 7207.01 – Sosial fəlsəfə

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2016**

Dissertasiya işi AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun "Müasir fəlsəfə problemləri" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Fəlsəfə üzrə elmlər doktoru, professor
**Əli Seyidabas oğlu Abasov**

**Rəsmi opponentlər:** Fəlsəfə üzrə elmlər doktoru
**Tahirə Allahyarova Bəkir qızı**

Fəlsəfə üzrə fəlsəfə doktoru
**Rabil Mehtiyev Zəkülla oğlu**

**Aparıcı təşkilat**: **Bakı Slavyan Universiteti**

Dissertasiyanın müdafiəsi «_31__»____05_____2016-cı ildə saat ____da AMEA Fəlsəfə və Hüquq institutunun nəzdindəki fəlsəfə üzrə elmlər doktoru və fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcələri almag üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: Bakı, Az-1143, H.Çavid prospekti 115, AMEA-nın Fəlsəfə və Hüquq İnsitutu, 9-cu mərtəbə konfrans zalı.

Dissertasiya işi ilə AMEA-nın Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» _____________ 2016-cı ildə göndərilmişdir.

**D.01.115 Dissertasiya**
**Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru** **Sevinc Arif qızı Həsənova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Qloballaşma prosesində milli və mənəvi dəyərlərin aktuallaşması prosesi özünü hər bir yerdə qabarıq şəkildə göstərir. Müasir dövrdə dostluq, qadın-kişi münasibətləri, sevgi, elm, qəhrəmanlıq, ədalətlilik və başqa bu kimi bir çox ənənəvi anlayışlara yeni fəlsəfi və mədəni anlamlar gətirilir. Mədəniyyətin formalaşmasında aksioloji əhəmiyyətə malik olan bu anlayışların zəngin mənəvi və elmi-fəlsəfi təhlilinə, onların yenidən araşdırılıb cəmiyyətə təqdim olunmasına, tədris sahəsində tətbiq olunmasına, onların fəlsəfi kateqoriyalar çərçivəsində ortaya qoyduğu yeni məna zənginliklərinin nəzərə alınmasına böyük ehtiyacın olduğunu nəzərə alsaq, ədibin zəngin elmi-fəlsəfi irsinin araşdırılmasının zəruri əhəmiyyətə malik olduğunu dərk edərik.

Ümummilli lider Heydər Əliyev Nizami Gəncəvi əsərlərinin bütün dövrlər üçün aktual olduğunu vurğulayaraq demişdir: «…Bu əsərlər təkcə şerdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə, dahi fikirlər var. Buna görə onun əsərləri də yaşayır, özü də yaşayır»[1]. Dissertasiyada mütəfəkkirin dünyagörüşündə araşdırılan problemlərin müasir dövr üçün vacib olan bir çox aktuallıqları vardır. Bu, ilk növbədə dünyada gedən sosial-mədəni problemlərlə bağlıdır.

Tədqiqatda araşdırılan ictimai və əxlaqi problemlər, sosial inkişaf, «xoşbəxtlər ölkəsi» modelində irəli sürdüyü sosial ədalət məsələləri, həmçinin əsərlərində tez-tez müşahidə olunan hüquqi dövlət və vətəndaş cəmiyyəti ideyaları, xüsusilə mənəvi təkamül, təlim və tərbiyə məsələləri barədə irəli sürdüyü fikirlər, cəmiyyətimizi düşündürən əsas məsələlər kimi öz aktuallığını bu gün də qoruyub saxlayır. Onlar, pedoqogika, pedaqoji psixologiya, idarəetmə və digər sosial sahələrdə mühüm əhəmiyyətə malik olmaqla yanaşı, həmçinin, milli təhsil sistemi və milli dövlətçilik quruculuğunda nəzərə alınması zəruri olan aktual problemlərdir. Qloballaşan cəmiyyətdə milli-mənəvi dəyərlərimizin qorunması baxımından ədibin irsinin araşdırılmasına və geniş miqyasda tədqiqinə böyük ehtiyac vardır.

---
[1] Əliyev Heydər. Mədəni irsimizin keşiyində. I kitab. Bakı, 2002. səh.78



Nizami Gəncəvi Azərbaycan xalqının düşüncə və duyğularını ifadə etdiyi kimi, eyni zamanda bütün başqa xalqların da mənəviyyat və tarixini böyük məhəbbətlə tərənnüm etmişdir. O, bir müsəlman və türkçülüyü ilə yanaşı, digər dinlərə və xalqlara da münasibətdə çox tolerant olmuşdur. Onun bu tolerantlığı İslam dininin mahiyyətindən irəli gəlmişdir. Sadəcə olaraq ədibin bir alim kimi islami dəyərlərə mükəmməl şəkildə yiyələnməsi və onları dərindən dərk etməsi, onun öz dövrü və bizim yaşadığımız dövrdə cox önəmlidir. Çünki milli-mənəvi dəyərlərin dərki məsələsi, bütün dövrlərdə və yeni olmuşdur. Bu baxımdan ədibin mövqeyi müasir həyatımızda öz aktuallığı ilə seçilir. Onun bu baxışları dövründən asılı olmayaraq öz əhəmiyyətini qoruyub saxlayır və onun əsərlərinin tədqiqinin nə qədər vacib olması zərurətini ortaya çıxarır.

Mütəfəkkirin həm milli, həm də ümumbəşəri ideyaları, müasir qloballaşma şəraitində dünyaya inteqrasiya bıxımından və inteqrasiya şəraitində inkişaf baxımından önəm daşıyır. Çünki onun müvafiq ideyaları həm milli, həm də qlobal səviyyədə özünü doğruldan fikirlərdən ibarətdir. Buna görə ədibin əsərlərinin xarici dillərə tərcümə olunaraq yayılması, Azərbaycan mədəniyyətinin təbliği ilə yanaşı, dünyada sülh mədəniyatinin inkişafına böyük tövhədir.

Nizami Gəncəvi irsinin tədqiqi, müsəlman Şərq fəlsəfəsinin öyrənilməsi baxımından aktualdır. Çünki uzun müddət Avropada orta əsr müsəlman Şərq fəlsəfəsinə əhəmiyyət verilməmiş və sadəcə olaraq bu fəlsəfənin antik fəlsəfənin təqlidçisi olması fikri irəli sürülmüşdür. Lakin orta əsr müsəlman Şərqində yazıb yaradan mütəfəkkirlərin əsərlərinin elmi tədqiqi nəticəsində məlum olur ki, antik dövrdə nəzəri şəkildə qoyulan bir çox problemlər orta əsr müsəlman Şərq elmində inkişaf edərək təkmilləşmiş və daha praktiki formada özünü birüzə vermişdir.

Orta əsrlərdə Azərbaycan ərazisində inkişaf edən ictimai-iqtisadi və mədəni həyat üzərində sosial-siyasi münasibətlər formalaşmışdır. Belə bir mürəkkəb və ziddiyyətli bir dövrdə yaşayıb yaradan ədib, regionun keçmiş və dövrünün mədəni irsini mənimsəyərək, öz əsərləri ilə Azərbaycan ədəbiyyatı və mədəniyyətinin gələcək inkişafına güclü təsir göstərmişdir. O, özündən əvvəlki elmi, dini, fəlsəfi fikirləri dərindən mənimsəmiş, öz xalqının və regionun mifologiyasını, fəlsəfəsini, tarixini, dini baxışlarını dərindən bilmiş, onları dərk edərək öz əsərlərində tənqidi

və müqayisəli araşdırma metodu əsasında istifadə etmişdir. Onun mütərəqqi fəlsəfi fikirləri, cəmiyyətin idarə olunması barədə ortaya qoyduğu ədalətli sosial-siyasi idarəetmə modelləri, sosial ədalətsizliyə qarşı çıxışları, onun dövrünün fərqli ictimai xadimlərindən və mütəfəkkirlərindən olduğunu göstərir. Nizami Gəncəvi dühası bu baxımdan bütün dövrlər üçün öz aktuallığını qoruyub saxlamışdır. Bu irsin araşdırılması, mədəni-mənəvi təkamül istiqamətimizin müəyyənləşdirilməsi baxımından əhəmiyyətlidir.

Mövzunun araşdırılması həmçinin Azərbaycan xalqının fəlsəfi fikir tarixinin orta əsrlərdə inkişafını göstərən bir amildir. Çünki ədibin fəlsəfi fikirləri ümumi müsəlman Şərq fəlsəfi fikrinin yerli türk xalq yaradıcılığında əks olunan xalq fəlsəfi müdrikliyi ilə sintezidir. Onun əsərlərinin tədqiqi, xalqımızın tarixinin, mənəvi irsinin və xalq fəlsəfi fikir tarixinin öyrənilməsi baxımından önəm daşıyır.

Nizami Gəncəvi əsərlərində insan, təbiət və cəmiyyət münasibətlərini vahid bir harmonik sistemdə götürmüşdür. Ədibin insanın təbiətə münasibətində bir çox ekoloji problemlərin həlli öz yerinə düşür. Həmçinin onun insanın insana və qanuna münasibətindən bir çox sosial-hüquqi problemlərin həlli keçir. Bu problemlərin həlli müasir dövrümüzdə böyük əhəmiyyət daşıyan məsələlərdəndir. Onun bu səpgidə olan fikirlərinin tədqiqinə daha çox ehtiyac olduğu üçün dissertasiya vacib əhəmiyyət kəsb edir.

2015-ci il mayın 5-də M.Lomonosov adına MDU-nun Baki filialında Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzinin fəaliyyəti ilə əlaqədar tədbir keçirilib. Tədbirin əsas məqsədi 2013-cü ildə Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzinin yaradılması ilə bağlı proqramın növbəti mərhələsini təqdim etməkdir. Mərkəzin rəsmi vebsayıtının İngiltərənin Oksford Universitetinin sayıtına yerləşdiyini və bununla da rəsmən tanındığını deyən professor Nərgiz Paşayeva bu münasibətlə tədbir iştirakçılarını təbrik edib.

**Problemin işlənmə dərəcəsi**. Bu gün mədəni-mənəvi, milli mənsubiyyətimizin məzmun baxımından təsbit olunması uğrunda aparılan mübarizə həm də elmi-nəzəri əsaslara malik olmalıdır. Xüsusən televiziyanın, mətbuatın milli mənəviyyata yad elementlərlə çıxışları müasir dövrdə mənəvi mühitin qorunması problemini



aktuallaşdırır. Bu mənada Nizami irsinin öyrənilməsini vacib hesab edən tədqiqatçı alimlər həmin istiqamətdə sanballı əsərlər ərsəyə gətirmişlər. Qeyd etmək lazımdır ki, Nizami Gəncəvi irsinin təsiri və davamı XII əsrdən bu yana bir çox müsəlman Şərq və hətta avropa müəlliflərinin yaradıcılığında əks olunmuşdur. N.Gəncəvi əsərlərinin və yaradıcılığının aktual olaraq elmi araşdırılması tarixi əsasən XX əsrdən başlamışdır.

Avropada XX əsrdə Nizami Gəncəvinin poemalarının tərcüməsi ilə yanaşı, onun əsərlərinin elmi təhlili ilə bağlı bir çox dəyərli tədqiqat işləri meydana çıxımışdır. Görkəmli Avropa tədqiqatçılarından A. Arberri, X. Masse, Y. Rıpka[1] və digərlərini misal göstərmək olar.

Keçmiş SSRİ dövründə ədibin irsi həm Azərbaycan, həm də digər sovet filoloq, filosof və digər tədqiqatçıları tərəfindən araşdırılmışdır. Rusiyada Nizami Gəncəvi irsini araşdıran tədqiqatçılardan E.E.Bertels, A.A.İqnatenko, A.E. Krımski və başqalarının adını çəkə bilərik.[2]

Müsəlman Şərq ölkələrində Nizami Cəncəvi irsinin elmi araşdırılması ilə məşğul olan tədqiqatçılardan Vahid Dəstgərdi, Səid Nəfisi, Sərvət Mənsur, Kamil Əhmədnejad[3] və başqalarının adlarını çəkmək olar.

XX əsrin əvvəllərindən Azərbaycanda M.Ə.Rəsulzadənin, Həmid Araslının[4] və başqalarının əsərləri nizamişünaslığın inkişafında mühüm əhəmiyyətə malik olmuşdur.

Nizami Gəncəvinin ədəbi-fəlsəfi dünyagörüşü sistemini əksər tədqiqatçılar araşdırmış və ona öz münasibətini bildirmişdir.

---

[1]Арверри А. Персидская поэзия. Анталогия стихвотворных переводов. Введение. Лондон. 1972, 240 стр.; Masse X. «Хосров и Ширин» перевод на французский язык. 1970 г. 210 стр.; Рыпка Я. Критическое издание поэты «Сеть красавиц».

[2] Bertels Y. Böyük Azərbaycan şairi Nizami. EA Nəşriyyatı, B., 1940.s 37.; Игнатенко А. В поисках счастья. «Мысль», Москва, 1989. с 255.; Крымский А. Низами и его современники. Изд. «Элм», Баку 1981.стр.486.

[3] Dəstəgərdi V. Nizami Gəncəvi. Tehran, 1318; Nəfisi S. Nizaminin Qəsidə və Qəzəllər divanı, onun şərhi. Tehran, 1338; Mənsur S. Nizami əsərlərinin ictimai və siyasi tarixi. Tehran, 1378; Əhmədnejad K. Nizami Gəncəvi əsərlərinin təhlili. Tehran, 1376

[4] Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı, "Çıraq" Nəşriyyatı, 2008; Araslı Həmid. Nizami və vətən. Bakı, Azərnəşr, 1942.

Onlardan Mir Cəlal Paşayev, M. Rəfili, M.Cəfər, C.Mustafayev, A.Rüstəmova, M.Abbasov, H. Hüseynov və s. adlarını çəkə bilərik.[1]

Q. Cahani, S. Paşayev, M. Əlizadə, H. Araslı, T. Xalisbəyli kimi alimlər ədibin folklorda olan xalq yaradıcılığını[2] M.Abbasov onun yaradıcılığında psixoloji məsələlərdən[3], B. Budaqov və S.Əliyev «Xəmsə»də təbiət problemlərindən[4], Q.Qasımov Nizaminin musiqiyə münasibətindən,[5] C.Quliyev, Y.R.Talıbov pedaqoji görüşlərindən[6], T.Kərimli «Xəmsə»nin tarixşünaslıqla əlaqələrindən, [7] M.Ələkbərov Nizamidə xalq mərasimlərindən, etnoqrafiyadan,[8] Q.Məmmədov, C.Cahanbəxş, M.Əlizadə,

[1] Mir Cəlal. Nizami. «Yeddi Gözəldəki hekayələr haqqında». Məqalələr toplusu. AMEA nəşriyyatı. Bakı ,1947.; Rəfili M. Nizami, həyatı və yaradıcılığı. Bakı, 1939.; Cəfər M. Nizaminin fikir dünyası, Bakı, Yazıçı, 1981, 201 səh.; Мустафаев Дж. Философские и этические воззрения Низами, Издательство АН Азербайджанской ССР, Баку, 1962, 156 стр.; Rüstəmova A. Nizami Gəncəvi: həyatı və sənəti, Bakı, Elm, 1979, 208 səh.; Abbasov M. Nizami ruh və ruhi problemlər haqqında. // «Azərbaycan müəllimi» qəzeti, 1947, 17 iyul.; Hüseynov X. Nizaminin «Sirlər xəzinəsi». Bakı. Elm. 1981. səh. 128)

[2] Cahani Q. Azərbaycan ədəbiyyatında Nizami ənənələri, Bakı, Elm, 1979, 204 səh.; Paşayev S. Nizami və Azərbaycan xalq əfsanələri, Bakı, Gənclik, 1983, 128 səh.; Əlimirzəyev X. Nizami Gəncəvinin insan konsepsiyası, Bakı, Gənclik, 2001, 353 səh.; Araslı H. Nizami və Azərbaycan xalq ədəbiyyatı. Məqalələr məcmuəsi. AMEA-nın nəşriyyatı. Bakı 1947.; Xalisbəyli.T. Nizami Gəncəvi və Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, ADPİ, 1988, 88 səh.

[3] «Azərbaycan müəllimi» qəzeti, 1947, 17 iyul.

[4] Budaqov B. Nizami əsərlərində təbiət // «Ədəbiyyat və incəsənət» qəzeti, 26 sentyabr, Bakı 1980.; Əliyev S. Nizami təbiətin qorunması haqqında // «Azərbaycan təbiəti» jur., N° $3_5$ 1985.səh.26-29.

[5] Qasımov Q. Nizami dövründə musiqi alətləri // Ədəbiyyat qəzeti, 27 sentyabr, Bakı 1947.; Qasımov Q. Nizami dövründə musiqi mədəniyyəti // «Ədəbiyyat qəzeti», 30 iyun, Bakı 1947.; Qasımov Q. Nizami və Azərbaycan musiqisi // «Elm və həyat» jurnalı, JV9 11, 1979, səh. 29-30

[6] Quliyev C. Nizami yaradıcılığı və mənəvi tərbiyə // «Azərbaycan müəllimi» qəzeti, 16 may, 1979.; Talıbov Y. Nizami Gəncəvinin pedaqoji görüşləri // «Nizami Gəncəvi» jurnalı, JST9 1-2, 1994, səh. 23-36.

[7] Kərimli T. «İskəndərnamə» poemasında tarixi həqiqətin əksi // «Nizami Gəncəvi» jurnalı, *NQ* 1-2, 1994, səh. 15-22; Kərimli T. Nizami və tarix, Bakı, Elm, 2002. 241 səh.

[8] Ələkbərov M. Nizami Gəncəvi yaradıcılığında Azərbaycan xalq məracimləri. Bakı, Azərnəşr, 1947, səh. 92-107.



Y.E.Bertels, H.Hüseynov şairin ictimai-siyasi görüşlərindən,[1] V.Qəhrəmanov ədibin hüquqi görüşlərindən,[2] M.Kazımov onun əxlaqi-etik görüşlərindən[3] və s. bəhs etmişlər. Nizaminin fəlsəfi görüşləri Z.Quluzadə,[4]H.Hüseynov,[5] A.Makovelski[6] C.Mustafayev,[7] Z.Məmmədov,[8] və başqa alimlər ciddi araşdırmışdır. H. Hüseynov Nizaminin sosial görüşlərini, yəni cəmiyyətlə bağlı sosial düşüncələrinin fəlsəfəsini,[9] A.Fərəcov şairin ictimai-iqtisadi görüşlərini[10] araşdırmışdır.

[1] Məmmədov Q. Nizami Gəncəvinin ictimai və siyasi görüşləri, Bakı, Azərnəşr, 1962, 61səh.; Cahanbəxş C. «Dədə Qorqud» və Nizamidə utopik sosializm ideyaları. «Vətən uğrunda» j, JNb 4-5, 1942.səh.109-115; Əlizadə M. Nizami yaradıcılığında utopik sosializm ideyaları // «Azərbaycan kommunisti» jurnalı, 13 dekabr, 1940.; Бертельс Е. Политические взгляды Низами // Известия АН СССР Отделение литературы и языка. 1941, №2, стр. 22-41; Гусейнов Г. О социальных воззрениях Низами // Известия АН Азербайджанской ССР, № 1, 1946, 9 стр.

[2] Qəhrəmanov V. Nizaminin hüquq görüşlərinə dair // Azərbaycan SSR EA-nın” Xəbərləri “Məcmuəsi, Bakı,JV7, 1948, səh. 71-76

[3] Кязимов М. К вопросу о морально-этических взглядах Низами и Амира Хосрова Дехлеви (по выступительным главам поэм «Семь красавиц» и «Восемь райских садов») // Доклады АН Азербайджанской ССР, №10,Баку, 1979, стр. 76-80

[4] Кулизаде З. Теоретические проблемы истории культуры Востока и низамиведение, Баку, «Элм», 1987, 228 стр.; Кулизаде З. О некоторых особенностях развития восточной философии XIII-XIВ вв. // «Из истории средневековой восточной философии» (сб.ст.), Баку, “Элм”, 1989.стр.25-41.

[5] Гусейнов Г. К вопросу отношений Низами к суфизму // Доклады АН Азербайджанской ССР, Том 3, № 9,Баку, 1947, 8 стр.

[6] Makovelski A. Nizamiana. Nizaminin dünyagörüşündəki dialektika ünsürləri // Azərbaycan SSR EA Fəlsəfə İnstitutunun əsərləri. 1-ci c, 1945.səh.35-36.; Makovelski A. Nizami bir filosof kimi // Azərbaycan SSR EA Fəlsəfə İnstitutunun əsərləri, 11-ci c, 1946. səh.26-27.; Маковельский А. Об ошибочных интерпретациях философии Низами // Известия АН Азербайджанской ССР. отдел. Общественных наук, Баку, № 6, Баку, 1965.;
Маковельский А. Азербайджанское общество XII в. по произведениям Низами // «Проблемы Азербайджанского Ренессанса» (сб. ст.). Книга первая, Баку, «Элм», 1984.стр.187-207.

[7] Мустафаев Дж. Философские и этические воззрения Низами, Издательство АН Азербайджанской ССР, Баку, 1962, 156 стр.; Мустафаев Дж. Мировоззрение Низами // Вопросы философии, № 12, Баку, 1962.

[8] Məmmədov Z. Nizani Gəncəvinin fəlsəfi düşüncələri. Bakı, Elm, 2001, səh.81.

[9] Гусейнов Г. О социальных воззрениях Низами // Известия АН Азербайджанской ССР, № 1, 1946, 9 стр.

[10] Фараджев А. Эпоха и социально-экономические воззрения Низами Гянджеви, Баку, 1957.29 стр.

Əsərin yazılmasında əsas mənbə kimi Nizami Gəncəvinin Azərbaycan dilinə tərcümə olunan əsərləri götürülmüş və ədibi tədqiq edən tədqiqatçıların əsərlərinə istinad edilmişdir. Dissertasiyada ədibin irsinin fəlsəfi tədqiqi, yalnız fəlsəfi tədqiqatlar əsasında deyil, paralel olaraq filoloji tədqiqatlar ilə müqayisəli tədqiqi əsasında formalaşmışdır. Bu isə dissertasiyada qarşıya qoyulan məqsədin daha dərindən və obyektiv tədqiqinə şərait yaratmışdır.

**Tədqiqatın obyekti** Nizami Gəncəvinin dünyagörüşüdür.

**Tədqiqatın predmeti** Nizami Gəncəvinin dünyagörüşündə sosial-mədəni və əxlaqi dəyərlərin sosial-fəlsəfi təhlilidir.

**Dissertasiyanın əsas məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi Nizami Gəncəvinin mədəni irsini sosial-fəlsəfi aspektdə təhlil edərək, onun dünyagörüşündəki sosial-mədəni və əxlaqi dəyərləri aşkarlamaq və bu mənəvi keyfiyyətləri müasir cəmiyyətə çatdırmaqdan ibarətdir. Bu məqsədin həyata keçirilməsi isə bir sıra kompleks vəzifələrin tədqiqini tələb edir:

- tədqiqatın məqsədi XI-XII əsrlərdə Azərbaycan ərazisində mövcud olan fəlsəfi düşüncə ənənələrinin mənşəyini araşdırmaq və bu dövrdə ortaya çıxan ideyaların Azərbaycan fəlsəfi fikir tarixinə təsirini öyrənməkdir;
- Nizami poeziyasında kamil insan fenomeninin səciyyəvi xüsusiyyətlərini aşkarlamaq;
- Nizaminin fəlsəfi irsini tədqiq edərək cəmiyyətin inkişafında təlim və tərbiyənin rolunu izah etmək;
- ədibin təfəkkürünün məhsulu olan əsərlərin mahiyyətinə vararaq oradakı vətənə məhəbbət, tolerantlıq, humanizm, dostluq, düzlük, əməksevərlik, təvazökarlıq kimi keyfiyyətlərinin izahını vermək;
- Nizamiyə xas olan elmi, dini və əxlaqi görüşləri sosial-fəlsəfi aspektdən səciyyələndirmək;
- Nizami fəlsəfəsində mühüm yer tutan sosial ədalət prinsipinin qoyuluşunun mahiyyətini açıqlamaq;
- Nizami lirikasında ideal cəmiyyətə xas olan keyfiyyətlərin sosial-fəlsəfi məzmununu aşkarlamaq;
- cəmiyyətdə qadının statusu ilə bağlı məsələyə ədibin münasibətini öyrənmək.

**Tədqiqatın elmi yeniliyi.** Nizami Gəncəvi yaradıcılığının təməlində dayanan problemlər, tədqiqatın elmi nəticəsi və onun elmi



yeniliyi ilə bağlı olan məsələlərdir. Ədibin dünyagörüşündə sosial-mədəni və əxlaqi dəyərləri sistem şəklində sosial-fəlsəfi aspektdə təhlil olunaraq ümumiləşdirilir, maraqlı nəticələr əldə edilir. Problemin qoyuluşu ilə müəyyən olunan elmi yenilik aşağıdakı müddəalarda öz əksini tapır:

- Nizami əsərlərində kamil insan, elm, əxlaq məsələləri fəlsəfənin kateqorial aparatından istifadə olunmaqla təhlil edilib;
- cəmiyyətdə konflikt və münaqişələrin qarşisinin alınması istiqamətində Nizaminin təlim və tərbiyə haqqmdakı fikirləri yeni aspektdə şərh olunub;
- Nizami poeziyasında insana və insan haqlarına münasibət məsələsinin fəlsəfi əsasları öyrənilib, ideal cəmiyyət və sosial ədalət prinsipinin Nizami əsərlərində idealizə olunmuş şəkildə təsviri təhlil olunub;
- Nizaminin cəmiyyətdə tolerantlığa münasibəti öyrənilib və cəmiyyətdə qadına münasibəti ilk dəfə olaraq gender aspektində təhlil olunub;
- «Sülh mədəniyyəti» fenomeninin Nizami yaradıcılığında özünəməxsus tərzdə əks olunması elmi dəlillərlə əsaslandırılıb;

**Tədqiqatın ideya-nəzəri və metodoloji mənbələri** kimi əsasən Nizami Gəncəvinin yaradıcılığının fəlsəfi təhlili durur. Dissertasiyanın elmi-praktik əhəmiyyəti onun elmi yeniliyi ilə sıx bağlıdır. Nizami Gəncəvinin ictimai və əxlaqi görüşlərinin müəyyənləşdirilməsində analiz, sintez, induksiya, deduksiya, məntiqilik (bənzətmə və fərqləndirmə), sistemli yanaşma və digər nəzəri metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələrindən sosial fəlsəfə, etika, mədəniyyətşünaslıq üzrə kurslarda mühazirə mətnlərinin hazırlanmasında, tədris proqramlarının tərtibində, metodik vəsaitlərin işlənməsində və bu mövzu ətrafında tədqiqat işi aparan tələbə, aspirant, elmi işçilər tərəfindən bir mənbə kimi istifadə oluna bilər.

Dissertasiyanın əməli qiyməti ondadır ki, onun əsasında ortaya qoyulan fikirlər, çıxarılan nəticələr milli-mənəvi dəyərlərin tətbiqi baxımından respublikanın ictimai-siyasi həyatında, elm və təhsil sistemində istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun «Müasir fəlsəfə

problemləri» şöbəsində müzakirə olunaraq müdafiəyə məsləhət görülmüşdür. Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin nəşr olunmuş məqalə və tezislərində, elmi seminar və konfranslarda etdiyi məruzələrində öz əksini tapmışdır.

**İşin strukturu.** Dissertasiya giriş, iki fəsil, beş yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci fəsli **"Nizami Gəncəvinin dünyagörüşündə sosial-mədəni dəyərlər"** adlanır. Birinci fəsil iki yarımfəsildən ibarətdir. Burada XI-XII əsr Azərbaycanda sosial-mədəni mühitdən, Nizami Gəncəvinin dünyagörüşündə ideal cəmiyyət və sosial ədalət prinsipindən bəhs olunur.

Nizami Gəncəvinin yaşadığı dövrdə artıq xilafət əsasən müstəqil türk dövlətlərinin varlığında mövcud idi. Bu dövlətlər çərçivəsində yaşayan xalqların birliyininin əsas təminatçısı islam dini idi. Etnik separatçılıq hərəkatları daha çox özünü müxtəlif istiqamətlərə parçalanan dini firqələrdə biruzə verirdi. Cəmiyyətdə xalq ilə hakimiyyət arasında böyük uçurum mövcud idi. Bu cəmiyyətin kamil bir cəmiyyət formasında inkişafı, sosial ədalət məsələləri günün ən aktual məsələləri idi. Buna görə həmin dövrlərin mütəfəkkirləri daima öz əsərlərində mövcud sosial-siyasi durumdan çıxış yollarını axtarmışlar.

Ədibin ictimai dünyagörüşünün formalaşmasında sufilik və əxiliyin böyük təsiri olmuşdur. Həmin dövrlərdə əxilik və sufilik mövcud idarəetmə sisteminə qarşı xalq arasında formalaşan və xalqı fiziki-mənəvi baxımdan birləşdirən hərəkatlar olmuşlar. Onlar daima xalqın ictimai birliyini və maariflənməsini təmin etmiş, hakimiyyət ilə xalq arasında olan uçurumun üzərində körpü rolunu oynamışdılar.

Nizami Gəncəvi yaradıcılığının ilkin dövrlərindən ictimai məzmunlu yazıları ilə tanınmışdı. Bu, onun hələ gənc yaşlarından hər hansı bir ictimai təşkilatda fəaliyyət göstərməsindən xəbər verir. Bu baxımdan onun ilkin ictimai siyasi ideyaları həmin dövrdə Gəncədə geniş yayılan əxilik təşkilatının ictimai ideyaları ilə səsləşirdi. Məsələn, üsyankar əxilərin xalq hərəkatına yönələn və haqsızlığa, zülmə qarşı mübarizəyə çağıran inqilabi şüarları ədibin lirikasında «zindanı aç!», «zəncirləri qır, yerə at!» kimi şüarlarında, əsərlərində xalqın mövcud rejimdən şikayətlərini bəyan edən sadə xalq



obrazlarında əks olunurdu. Məsələn, «Sultan Səncər və qarı», «Yeddi məhbusun hekayəti» və başqa hekayətlərdə bu özünü açıq şəkildə biruzə verir.

Nizami üsyankar əxilərdən fərqli olaraq hakimiyyətin inqilabi yol ilə çevrilişi fikrinə tərəfdar deyildi. O, mövcud rejimin islah olunması istiqamətində təkamül prinsipinə əsaslanan tədbirlərin görülməsinin tərəfdarı olmuşdur. Bunun üçün şair öz əsərlərində hakimiyyəti qıcıqlandıran inqilabi metodlardan deyil, tarixi təkamülün mənəvi qanunuyğunluqlarının nəticələrini ortaya qoyan simvolizm və ibrətamiz müqayisəli təhlil metodundan istifadə etmişdir. Eyni zamanda şair islamın axirət, ölüm anlayışı ilə, həmçinin ədalətsiz hökmdarların bu dünyada cəzalandırılacağı mənəvi-tarixi prinsipi ilə zülm, ədalətsizlik törədən hökmdarları qəflətçilikdən, cəhalətdən çəkindirmək və əbədi səadəti qazanmaq uğrunda xeyirxah işlər görməyə, ədalətli olmağa çağırış metoduna üstünlük verirdi.

Orta əsr müsəlman mütəfəkkirlərinin sosial-siyasi ideyalarını birləşdirən ümumi cəhət, «ideal cəmiyyət», «ideal dövlət», «xoşbəxtlər ölkəsi» ideyasıdır. Bu orta şərq müsəlman aləmində mövcud olan bir çox ictimai təlimlərdən biridir. Fərabinin «xeyirxah şəhər» sosial utopiyası ilə Nizaminin «xoşbəxtlər ölkəsi» sosial ideyası arasında paralellər aparmaq mümkündür. Onun sosial utopiyası ictimai gözəllik ideyasının zirvəsidir. Bu cəmiyyətdə təbəqələşmə yoxdur və insanlar bərabər hüquqludurlar. Nizami dövrünün utopik azadlıq ideyasının ilk yaradıcısı kimi ortaya çıxır. O, bu fikirləri ilə avropada utopik sosialistləri qabaqlamışdır.

Nizaminin ideal cəmiyyəti ilk baxışdan utopik bir cəmiyyət modeli kimi nəzərə çarpır. Ədibə görə, bu məqsədə çatmağın əsas yolu, şəriət qanunlarına itaət etməkdən, xalqın islami prinsiplərə yiyələnməsindən, onları dərkindən və həyat tərzinə çevrilməsindən keçir. Bunun üçün xalqın maarifləndirilməsi və islam əxlaqı ilə əxlaqlanması vacib şərt kimi ortaya çıxır. Bu baxımdan cəmiyyətin ali məqsədə doğru inkişafı praktiki bir fəaliyyət sahəsinə çevrilir. Məhz bu yolda əsas vəzifə, həmin dövrlərdə dövrün tələbi ilə ortaya çıxan əxilik və sufilik hərəkatlarının üzərinə düşürdü. Buna görə də, dövrün ədiblərinin, mütəfəkkirlərinin və onlar arasında dahi Nizaminin məhz bu istiqamətdə fəaliyyət göstərməsi, onların dövrünün həm də fəal ictimai xadimləri olduğunu göstərir. Məhz, bu

baxımdan orta şərq sosial-siyasi ideyaları antik dövrün formal sosial-siyasi ideyalarından öz praktikliyi və humanistliyi ilə fərqlənir.

Nizaminin yaradıcılığında utopik cəmiyyətin təsvirinə tez-tez yer verir. O, əsasən cəmiyyətin idarə olunmasında ədalət, humanizm, mərhəmət prinsiplərinə əsaslanır. Bu da onun həm yaşadığı cəmiyyətdən narazılığını, həm də insanın yalnız xoşbəxt cəmiyyətdə xoşbəxt ola biləcəyinə inamından irəli gəlir. Nizami dövrünün naqisliklərindən – əyriliklərindən, yalançılıqdan, rüşvətdən, xəyanətdən və başqa şeylərdən çox şikayətlənir. Yəni o yaşadığı cəmiyyətin ideal saydığı cəmiyyətdən xeyli fərqləndiyini deyir. Və xoşbəxt saydığı cəmiyyəti təsvir edir. O, doğru danışan, düz işlər görən, xeyirxah, heç kəsə pislik etməyən insanların cəmiyyətidir. Burada Nizaminin qədim Yunan filosoflarının utopik cəmiyyət təsəvvürləri ilə qismən uyğunluğu duyulur. Xüsusilə, Sokratın xeyirxah insanlar icmasına, Platonun dövlətinə qismən yaxınlıq görünür.

Nizami cəmiyyətin ali məqsədə doğru inkişafında adil şah ideyasına böyük əhəmiyyət verir. Platon ideal dövlətin başında filosofu görürsə, Nizami adil şahı görür. Ancaq Nizaminin adil şahı da nəcib, bilikli, əxlaqlı geniş dünyagörüşünə malik adam olmalıdır. Bu mənada onun «adil şahı» Platonun «filosof – hökmdar» obrazına uyğundur. Bu onu göstərir ki, Nizaminin cəmiyyət və dünya haqqında təsəvvürlərinin formalaşmasında Sokrat və Platonun fəlsəfəsinin rolu böyük olub. Nizami elə bir dövrdə yaşayırdı ki, cəmiyyətdə sosial inteqrasiya, iqtisadi qanunauyğunluqlar zəif özünü göstərirdi. Ölkə adətən, ayrı-ayrı vilayətlərdən ibarət idi və onlar şahın fərmanı ilə idarə olunurdu. Onda belə təsəvvür yaranırdı ki, cəmiyyətdə olan hər bir hadisə (siyasi, iqtisadi, mənəvi) şahın necə fərman verməyindən asılıdır. Fərman siyasi-iqtisadi reallığı yaradırdı, əks təsəvvür olunmurdu. Məhz buna görədir ki, ölkənin hər bir uğuru və ya uğursuzluğu şahın adı ilə bağlanırdı. Ancaq onun dərin zəkası bir çox sosial problemlərə nüfuz edə bilirdi. Ədib əsərlərində hökmdarların əxlaqi simasını dəyişdirərək, psixoloji məqamlara toxunurdu.

Nizami Gəncəvi cəmiyyəti təbiətin ayrılmaz bir hissəsi kimi səciyyələndirir. Onun sosial ədalət ideyasının təməlində ilahi eşq ideyası dayanır. Varlığı idarə edən ilahi eşq, həmçinin cəmiyyətin də idarəolunmasını təmin edir. Cəmiyyətdə xoşbəxtlik, onu təşkil edən



insanların bir-birinə olan məhəbbəti əsasında bərqərar olur. Bunu İskəndəri heyrətə gətirən «xoşbəxtlər ölkəsində» olan insanların qarşıdıqlı münasibətlərində müşahidə edirik. Çünki, ilahi eşq insanlararası münasibətlərdə sədd çəkən bütün idrak formalarını aşaraq vəhdətə, harmoniyaya gətirir.

Nizaminin sufizmdən qaynaqlanan eşq fəlsəfəsi humanizm ideyaları ilə üzvi şəkildə birləşərək ictimai xarakter kəsb etməyə başlayır. Aşiqlər humanizmin və sosial ədalətin obrazına çevrilirlər. Xeyirxahlıq eşq ilə əldə olunur. Çünki eşq qəlbi paklaşdırır, ona fədakarlıq, qəhrəmanlıq kimi pak hisslər bəxş edir, insanı əbədiyyət, həqiqət kimi uca mənalara qovuşdurur. Lakin bu uca zirvələrə yetişən əsər qəhrəmanları, yaşadıqları cəmiyyət üçün «dəli, divanə» hesab olunurlar. Məsələn, Məcnun bu cəmiyyətdə dəli-divanə kimi tanınan bədbəxt bir insandır. Onun varlığı, cəhalət qaranlığına qərq olmuş cəmiyyət üçün sönmüş bir günəşdir. Nizami Gəncəvi bununla, yəni eşq fəlsəfəsi ilə ictimai rejimin çirkinliklərini ortaya qoymuşdur. Məcnunun eşqi yaşadığı cahil cəmiyyətdə özünə yer tapmır. Deməli, Nizamiyə görə ilahi ədalətin, harmoniyanın və ictimai təkamülün əsas düşməni cahillikdir. Cahillik isə bütün varlığı vəhdətə gətirən ilahi eşqdən məhrum olanların idrakıdır. Nizami var-dövləti, vəzifəni, eyş-işrəti hər heydən uca tutan cəhalət obrazlarını əsərlərində aydın şəkildə işıqlandırmış və onları kamil insan obrazları ilə üz-üzə qoymuşdur. Ədib, bu metodla cəmiyyətdə sosial-əxlaqi xeyir və şər problemini həll etməyə çalışmışdır.

Lakin ədibə görə təbiətdə mütləq mənada ideal cəmiyyət yaratmaq mümkün deyildir. Çünki cəmiyyət kamil və cahil insanların mübarizəsindən ibarət olan bir idraki təkamül prosesidir. Cəmiyyətin ali məqsədə doğru təkamülü həm fiziki, həm də metafizik bir prosesdir. Buna görə də, ideal cəmiyyət öz son məqsədinə metafizik «cənnət» ideyasında qovuşur. Cənnət, sonralar cəhənnəm əhli olacaq kafirlərdən seçilmiş mömünlərin yeri olduğu halda, dünya hər ikisinin birlikdə mövcud olduğu yerdir. Buna görə də, onların vahid bir ideal cəmiyyətdə mövcudluğu problem olaraq qalır. Nizaminin bu baxımdan ideal cəmiyyət ideyası daha çox metafizik xarakterlidir.

Lakin Nizami problemin həllinə dialetik təkamül prinsipindən yanaşır. Ona görə, bəşəriyyəti sosial ədalətə aparan yol, kamil insanın yetişdirilməsi və tərbiyəsindən keçir. Hətta ayrı-ayrı kamil tarixi şəxsiyyətlər, peyğəmbərlər təkbaşına bu problemin öhdəsindən

gəlmək iqtidarında deyildirlər. Nizami bunun üçün sərkərdəlik, hökmdarlıq, filosofluq və peyğəmbərlik mərhələlərindən keçən ədəbi İskəndər obrazını yaratmış və bununla dünyada sosial ədalətin, kamil cəmiyyət modelinin qurulmasının hər bir cəmiyyət üzvünün kamilləşməsindən asılı olduğunu, yəni ayrı-ayrı mömün şəxsiyyətlərin qurduğu vətəndaş cəmiyyətinə bağlı olduğunu göstərmişdir. Buna görə də, Nizami Gəncəvinin əsərlərinin əsas fəlsəfi məzmunu, insan və onun özünüdərk fəlsəfəsi üzərində qurulmuşdur. Çünki, sosial problemlərin həlli məhz şəxsiyyətin yetişdirilməsindən asılı olmuşdur. Eyni zamanda ədibin fikrinə görə, cəmiyyətdə şəxsiyyətin, kamil insanın yetişdirilməsi, təbiətin özündə potensial şəkildə mövcud olan antrop prinsipinə uyğun gəlir:

Ey yer üzündə fələk kimi nazlanan insan,
Həm fələk, həm də göy sənin nazını çəkir.

Nizami antrop prinsipini önə çəkməklə insanın təbiətdə oynadığı rolu və onun üzərinə düşən vəzifəni xatırlatmışdır. Bu rol və vəzifələr hər bir vətəndaşın üzərinə düşür. İnsan yanlız öz qurduğu cəmiyyət görə deyil, həmçinin onu əhatə edən ətraf mühitə, təbiətə görə ilahi bir məsuliyyət daşıyır.

Lakin rəiyyəti idarə etmək vəzifəsini üzərinə götürən hökmdarlar burada bir xəlifə kimi xüsusi məsuliyyət daşıyırlar. Buna görə onların üzərində xüsusi ilahi cavabdehlik vardır. Onlar təbiətdə və tarixdə müəyyən missiyanı yerinə yetirir və bunun üçün təbiət onlara bu missiyanın yerinə yetirilməsinə potensial şəkildə imkan yaradır. Nizami hökmdarları Adəm və Məhəmməd peyğəmbərin varisləri kimi dəyərləndirərək onları Hümaya bənzədir. Onların həyat tərzi ilə peyğəmbərlərin həyat tərzini müqayisə edir. O, həmçinin aləmdə olan bütün varlıqların yaradılan müqəddəs bir gövhər olduğunu və hökmdarların onlardan biri olduğunu, lakin onlar üzərində tarixi bir missiya daşıdığını bildirir.

Nizami xüsusilə hökmdarlara bildirir ki, ilahi qanunlara itaət və onların qorunub saxlanılması, şahların üzərinə düşən ən böyük məsuliyyətdir. Daim adil, haqqpərəst insanlar, cəmiyyətdə bunların qorunub saxlanılması, yəni xalqın hüquqlarının qorunması üçün mübarizə aparmış və canlarından keçmişlər. Heç bir hökmdar isə bu əmanətə xəyanət edə bilməz.

Nizami Gəncəvi bildirir ki, yaratma, əmr və hökm Yaradana



aid olduğu üçün, onlara aid olan haqq və vəzifələr də Ona aiddir. Yaradanın hakimiyyət və qüdrətini, mütləq xarakterini, onun sonsuzluğunu, varlığı yaradıb idarə etməsini təsdiq edən sifətləri vardır. Onun hakimiyyəti öz əksini varlıqda tapır və obyekt üzərində reallaşır. Yaradanın Mutləq hakimiyyətinin bir təcəllisi olan dövlət ilahi hakimiyyətin gerçəkləşməsində bir vasitədir. Dövlət qanunlarla mövcuddursa, qanunlar da ilahi hakimiyyətlə müəyyənləşir. Nizami Yaradana «Ey Şahi Cahan», «Dünyanı yaşadan ey Sahibi-taxt» ifadələri ilə müraciət edir.

Beləliklə, Allah qanunlarla idarə olunan ədalətli cəmiyyətin varlığında təcəlli olunur. Nizamiyə görə, sosial-əxlaqi münasibətlər həm qorxu, həm də sevgi üzərində qurulur. Hər iki əxlaqi davranış cəmiyyətdə sosial siyasi balansı qoruyub saxlayır və geniş mənada inkişafa təkan verir. Çünki, bu sevgi «qardaşlıq sevgisi» kimi həm cəmiyyətə, həm də Allahın təcəllisi olan təbiətə sirayət edir.

Nizami Gəncəvi sosial-siyasi ideyalarında sırf fatalist nöqteyi-nəzərdən problemə yanaşmamışdır. O, insan iradəsinin varlığı məsələsini də əsərlərində ön plana çəkmişdir. Lakin həmin dövrlərdə regionda geniş yayılan mütəzilə fəlsəfi cərəyanından fərqli olaraq, ədib ifrat iradə azadlığı prinsipinə də getmir. O, mütləq iradə ilə fərdi iradə arasında orta yolu seçir və məsələyə məhz bu baxımdan yanaşır. Nizaminin qədər məsələsində mövqeyi, imam Maturidiyyə mövqeyi ilə üst-üstə düşür. Lakin Nizami ilahi iradə ilə fərdi iradənin vəhdəti prinsipinə üstünlük verir. O, cəmiyyətin ilahi şəriət qanunları ilə idarə olunmasını mütləq azadlıq ideyasının bir təcəlli forması kimi dəyərləndirir. Eyni zamanda cəmiyyətdə insanların ilahi sevgi əsasında qurulan birliyini, mütləq iradə ilə fərdi iradənin bir sintez forması hesab edir. Məhz bu sintez formasında ilahi ədalət və azadlıq öz əksini olduğu kimi cəmiyyətdə tapır. Nizami bu sintezin bariz nümunəsini «xoşbəxtlər ölkəsi» ideyasında yaradır. Burada göründüyü kimi həmin ölkədə insanın öz din, mal, namus, vətən və canlarını qorumaq və inkişaf etmək üçün öz dövlətlərinin yaradılması zərurəti meydana çıxmır. Yəni dövlətin mövcud olmadığı bir şəraitdə insanlar təbiətdə olduğu kimi bir cəmiyyət halında ilahi hakimiyyətin iradəsinə tabe olurlar. Onlar ilahi eşqin qanunları ilə idarə olunur və idarə edirlər. Bu cəmiyyət cəhalətdən xilas olan və mənəvi təkamülün zirvəsinə yüksələn kamil insanların cəmiyyətidir.

Nizami Gəncəvi cəmiyyətin inkişafı məsələsinə dialektik

yanaşmışdır. Varlıqda mövcud olan universallıq təbiətdən fərqli olaraq azad iradə və idrak qanunauyğunluğuna əsaslanan cəmiyyətdə başqa formalarda təzahür edir. Cəmiyyət daim inkişafda zənginləşib, böyüyüb və parçalandığına görə, onu idarə edən qanunlar da öz ilkin formasından çıxaraq dövrün reallıqlarına uyğunlaşdırılmış, böyümüş, inkişaf etdirilmiş, müxtəlif qruplara bölünərək müxtəlif adlarla tanınmışdır. Nizami bu baxımdan cəmiyyət və sivilizasiya problemlərini tarixi dialektizm prizmasında araşdırmış və bu qanunauyğunluğun mahiyyətində ilahi eşq fəlsəfəsini qoymuşdur. Bu baxımdan Nizaminin tarixin fəlsəfəsinə münasibəti, sinergetik bir yanaşmadır. Ədib varlıqda olan bu ontoloji qanunauyğunluq prinsipinə əsaslanaraq, ədalətsiz hökmdarlara nəsihətlər vermiş və tarixi keçmişi onlara nümunə göstərmişdir.

Yaradanın mütləq hakimiyyəti öz təcəllisinə görə əvvəlcə yer üzərində dövlətin və hüququn yaranması üçün lazım olan hökmləri ilahi vəhylə alıb insanlara çatdıran və onların həyata keçirilməsi uğrunda mübarizə edən peyğəmbərlərə, sonra isə peyğəmbərlərin elan etdikləri ilahi qanunlarla dövləti idarə edən ədalətli hökmdarlara ötürülür. Məsələn, Bəhramın xalq tərəfindən hakimiyyətə gətirilməsi və onun tacı iki şir arasından götürməsi təsadüfi bir hadisə deyildir. Ədib, burada ilahi iradənin mövcud olduğunu bildirir.

Nizami Gəncəvi İskəndər obrazında onların hər ikisini birləşdirir. Çünki, əsərdə İskəndər həm hökmdar, həm də peyğəmbərdir. Ədalətsiz hökmdarlar isə bu hiyerarhiyanı pozaraq hakimiyyəti öz şəxsi mənafeyinə bağlayır və onun idarə etdiyi dövlət onun şəxsi mənafeyinə xidmət edir. Lakin bir çox bədxah hakimlər öz hakimiyyətini xeyirxah hakimiyyət kimi qələmə verərək şərin ideyasını və ya obrazını özündən uzaqlaşdırmaq üçün şəri xalq arasında, ona qarşı haqlı olaraq müxalifətdə dayanan siyasi müxalifətdə, əxilik hərəkatında axtarmağa çalışmışlar. Şair bu hökmdarların hakimiyyətinin sonu olmadığını yəni onların ilahi ədalət prinsiplərinə qarşı çıxdıqlarını bildirir.

Dissertasiyanın ikinci fəsli "**Nizami Gəncəvinin dünya-görüşündə kamil insan, elm və əxlaq məsələləri**" adlanır. İkinci fəsil üç yarımfəsildən ibarətdir. Burada Nizami Gəncəvinin əsərlərində kamil insan məsələsindən, elm, təlim və tərbiyə, əxlaq barədə görüşlərindən bəhs olunur.

Nizaminin yaradıcılığını mahiyyətini insan problemi təşkil



edir. İnsanın təbiəti və varlığını, onun kosmosda mövcudiyyətini kompleks şəkildə öyrənilməsini irəli sürən Nizami, insanın birtərəfli öyrənilməsinə qarşı çıxaraq onun unikallığı və avtonomluğu ideyasını irəli sürmüş və ontoloji dəlillərə əsaslanaraq insanı bir bütöv sistem daxilində tərənnüm etmişdir.

Nizami insanı təbiətin ayrılmaz bir hissəsi olduğunu irəli sürməklə yanaşı, onun metafizik varlığına da xüsusi önəm vermişdir. Onun kamil insan fəlsəfi ideyasının təməlində dayanan fəlsəfi anlayış əbədiyyət anlayışıdır. Əbədiyyət, Allahın metafizik anlayışı ilə bağlı olan fəlsəfi kateqoriyadır. O, ölümün antonimidir. İskəndər özündə ölümə qalib gəlmək istədi və əbədiyyətə üz tutdu. Nizami əbədiyyətə qovuşmaq yolunun ölümdən keçdiyini yəni insanın digər psixoloji mənlərindən qurtulub öz məninə qovuşmağın özünüdərk prosesindən keçdiyini bildirir.

Şair Məcnunun varlığında bir məhəbbət və hikmətin, yox-luğunda isə bir qüssə və boşluğun olduğunu göstərir. Məcnun Yaradanın ali məqsədini özündə daşıdığı üçün təbiət bu məqsədin bir vasitəsinə çevrilir. Təbiət öz gözəlliyini Məcnunda tamamladığı halda, Məcnun öz gözəlliyini yanlız «Mütləq Həqiqət»də tamamlayır və Onu özündə təcəlli olunan sifətləri vasitəsi ilə tanıyır. Onun əvəzolunmaz dəyəri və missiyası da məhz bundadır. O, öz ağlıyla özündə təcəlli olunan həqiqəti qavramaqla özünü aşıb, daha yüksək bir məqama yetişməklə kamil insan olur. Onun məqamı Allaha itaət və təslimiyyətinin dərəcəsi ilə fərqlidir. O, Yaradana öz itaətində nə qədər seçilirsə, onun digər yaradılanlar üzərində məqamı da bir o qədər ucalır. Məcnun ilahi eşq ilə bütün təbiətlə, vəhşi heyvanlarla dil tapır və onlara öz sevgisi ilə qovuşur. Lakin o, öz insan cəmiyyətinə və Leylisinə qovuşa bilmir. Biz bu kimi arzuların izinə «Dədə Qorqud» dastanında da təsadüf edirik.

Nizami Gəncəvi insanın kamilləşməsində əməyin rolunu xüsusi vurğulayır. Çünki əmək insanları mənəvi xəstəliklərə düçar olmaqdan xilas edir. O, insanın mənəviyyatının müstəqil olmasına və təkmilləşməsinə şərait yaradır. Buna görə də, ədib əsərlərinin hamısında əməyi, halal qazancı tərənnüm edir.

Nizami Gəncəvinin kamil insan obrazları əbədiyyətə qovuşmaq eşqi ilə ucalan insanlardır. Onlar Tanrı-təbiət münasibətlərini tamamlayan, İlahi Varlığın tərkib hissəsi kimi həm maddi, həm də ruhani sistemlərin mükəmməl vəhdəti və mikrosistemi olan

insanlardır. Nizami «Sirlər xəzinəsi» əsərindən yəni yaradıcılığının ilk dövrlərindən başlayaraq öz əsərlərində Allah-Təbiət-İnsan münasibətlərinin sistemli əlaqəsini qurmuşdur. Onlar özündə təcəlli olunan və fitri olaraq mövcud olan «Mütləq Varlıq»ın həqiqətinə yalnız özünəqayıdışla və ya özünüdərklə qovuşurlar. Onlar öz nəfslərinə qarşı mübarizə edərək, özündə mövcud olan fitri başlanğıcı kəşf etmək, iradəsində Mütləq İradəni duymaq, bəsirətlə təbiətin mahiyyətinə varmaq və hər şeydə Yaradanın varlığını görmək, Mütləq Ədalətə və kamilliyə qovuşmağa can atan insanlardırlar. Bu baxımdan Nizami Gəncəvi yaradıcılığının fəlsəfəsində bir çox ontoloji məsələlərin həlli, epistomoloji məsələlərin həllindən keçir. Çünki, idrak varlığın ilkin forması kimi təbiətdə empirik müşahidə olunan «ali məqsəd» funksiyasını daşıyır. «Mütləq Varlıq»ı müəyyənləşdirən əsas kateqoriyalardan və ya Yaradanın sifətlərindən biri kimi «Mütləq İdrak», insanın ilkin fitri varlığında və təbiətin məqsədyönlü dinamikasında aşkar olur. Buna görə də insanın maddi zaman və məkanın fövqündə olan əbədiyyətə cəhd etməsi, onun qəlbindəki zərrədən irəli gələn fitri bir cəhddir. Bu cəhd onda şüuraltı şəkildə baş verir. O, şüuraltı olaraq, yaradılışın ilkin mərhələsinə yəni əbədiyyətə can atır. Çünki o, özündə əbədiyyətin elementlərini duyur və mərkəzə şüuraltı şəkildə yaxınlaşdıqca cəzbetmə qüvvəsi daha da artır. İlahi vəhdətdən ayrılan insanın ruhu yenidən o vəhdətə tələsir yəni onun qəlbində olan əbədiyyət duyğusu onu daima bu vəhdətə çağırır. Buna görə də, insan idrakı həmişə ideala və ya kamilliyə istiqamətlənir. Deməli kamilliyə gedən yol insanın özündən özünə gedən yoldur. Leylisini axtaran Məcnun və yaxud əbədiyyət axtarışında olan İskəndər məhz bu yolun yolçusu olmuşlar.

Ədib insanın bu kamillik yolunda nəfsi ilə müşayiət olunduğunu bildirir. Çünki, ruh əbədiyyətə, nəfs isə dünyaya bağlıdır. Onların hər ikisi də bir insanın ayrılmaz tərəfləridir. Nizami Gəncəvi Bəhram Gur obrazında bu ziddiyyəti göstərməyə nail olur. O, bir hökmdar kimi bu dünya ilə əbədiyyət arasında orta yolu tutmaqda çətinlik çəkir. Onun nəfsini bir tərəfdən tamah dünyada eyş-işrətə çəkir, digər tərəfdən Şirin, Fərhad kimi xeyirxah obrazlar onu ədalətə, xeyirxahlığa sövq edirlər. Lakin əsərin sonuna qədər hər ikisi arasında olan yolu tapa bilmir və onlar arasında qeyri-sabit həyat tərzi keçirir. Çünki o, İskəndər kimi, Məcnun kimi əbədiyyətə aparan seyri-süluk yoluna qədəm basmaqdan çəkinir və beləliklə ömrünü bu



ziddiyyətlər içində sona çatdırır.

Nizaminin kamil insan və ümumiyyətlə bir çox fəlsəfi problemlərə yaxınlaşmasında, biz Qurani-Kərimin aydın təsirini müşahidə edirik. Bu baxımdan ədibin görüşləri sufi fəlsəfi görüşləri ilə üst-üstə düşür. Bunu kamil insan məsələsində də müşahidə etmək mümkündür. Nizamiyə görə, kamil insan həmçinin azad olan insandır. Azadlıq insanın bir şəxsiyyət kimi formalaşmasına təsir göstərən ekstensial bir səbəbdir. O, şəxsiyyətin metafizik sferasında rasionallığın ekstensial mənbəyi kimi aşkar olur. Şəxsiyyətin rasionallığı onun azadlığındadır. Azadlıq isə ağlın funksiyasıdır. Buna görə də, şairin yaradıcılığında elm ilə imanın vəhdəti prinsipi əsas prinsip olaraq qalır. Məcnunun azadlığı irrasional yol ilə əldə olunan azadlıq hesab olunsa da, əslində şairə görə, metafizik ölçülər çərçivəsində bu azadlıq rasionaldır. Lakin insan azadlığı deyəndə şair insanı təbiətin qanunları fövqünə çıxan və ona tabe olmayan bir varlıq kimi səciyyələndirmir. Çünki, insan təbiətdə yaradılmış və onun daxili qanunlarına tabedir. Təbiətin qanunları onun fəaliyyətinə determinizm prinsipi əsasında təsir göstərir. Onun varlığı, öz azadlığını dərketmə dərəcəsi qədərdir. Məhz bu baxımdan insan şərti olaraq təbiətdə deyildir. Deməli, şairə görə, təbiətsiz azadlıq, azadlıq olmadan isə insan yoxdur. Nizami Gəncəvinin əsərlərindən məlum olduğu kimi, azadlıq nəfsdən azad olanda və azad olduqdan sonra kamil bir insan kimi müəyyənləşib formalaşanda aşkar olur.

Bu baxımdan insan unikal azad varlıq kimi yaradıcıdır. Buna görə də o, Fərhad kimi eşq yolunda təbiəti dəyişməyə cəhd edir və Bisutun qayasını yarıb, onu özünə tabe edir. İnsan azad yaradıcı bir varlıq kimi təbiətinin fövqünə yəni öz nəfsi istəklərinin fövqünə çıxa bilər və çıxmalıdır. Çünki, əks təqdirdə o, öz funksiyasını itirmiş olar. Mənəvi qanunlar fiziki qanunlardan fərqli olaraq məcburiyyət qoymur, məsuliyyət qoyur. Çünki Fərhadı sarsılmaz qayanı sındırmağa vadar edən məntiqlə izah oluna bilməyən mənəvi qanunların təzahürü idi. Yaxud bütün dünyanı öz hakimiyyəti altına alan İskəndərin bu qüdrəti mənəvi qüdrətin bir təzahür forması idi. Bu baxımdan fərdlər təbiətin qanunlarına uyduqları üçün eyni, şəxsiyyətlər isə mənəviyyat qanunlarına uyduqları üçün onlardan seçilirlər və xalqın gözündə el qəhrəmanlarına çevrilirlər. Şairin əsərlərini qəhrəmanları məhz belə qəhrəmanlardır.

Bir tərəfdən mənəvi imkan qanunları insana daxildən bir

istiqamət, məsləhət verdikləri halda, digər tərəfdən təbiət qanunları nəfs vasitəsiylə insanı başqa bir tərəfə yönəldir ki, məhz insan burada öz seçimi ilə seçilərək ya fərd, ya da şəxsiyyət olur. Fərhad və Şirin öz eşqi yolunda ortaya çıxan dilemma qarşısında ölümü seçdikləri halda, Bəhram Gur yenidən eyş-işrət ilə davam edən ömrü seçir. Şirin, Fərhad, Məcnun öz seçimləri ilə kamilləşdikləri halda, Xosrov bu seçimi dərk etməkdə aciz qalır. Bu azad seçim insanın mənəvi qanunlarından irəli gəlir ki, bu da Yaradanın Mütləq Ədalətinə dəlalət edir. Ancaq bu azadlığın müəyyən sərhədləri vardır. Bu sərhədlər azadlığın özünə deyil, bu azadlığı daşıyan insanın fəaliyyətinə təbiət və cəmiyyət tərəfindən qoyulan sərhədlərdir. Lakin Məcnun və Fərhad kimi aşiqlərin azad idrakı, onları əhatə edən gerçəkliyə nisbətdə işıqla qaranlığın nisbəti kimidir.

Nizami Gəncəviyə görə, kamil insan özündə özünü kəşf edən və ya özü ilə özünə qalib gələn insandır. Əslində onun qəhrəman-larının hamısı bu yoldan keçmiş və özünə qalib gələn insanlardır. Məsələn İskəndərin əbədiyyət axtarışına səfəri, onun öz mənəvi aləminə etdiyi sufizmin seyrü-süluk səfəridir. Onun öz səfərində təsadüf etdikləri, əslində onun mənəvi ziddiyyətlərinin ortaya qoyduqlarıdır. Yaxud onun metafizik sosial reallıq olan «xoşbəxtlər ölkəsi» ilə qarşılaşması, onun düşüncəsində yaratmaq istəyi cəmiyyətin arzularıdır. Bununla ədib, əsərin süjetində mənəvi aləmin maddi aləmlə üzvi bağlılığını və ya keçid formalarını göstərir. Əslində bu keçid formaları insan varlığında müəyyənləşir. Buna görə də o, kamil insan fəlsəfəsi problemində insanın fiziopsixoloji problemlərinə xüsusi diqqət yetirir.

Nizami insanın kamilləşməsi yolunda dini ibadətin önəmini xüsusilə vurğulayır. İbadət insanın qəlbini daima Yaradanla ünsiyyətdə saxlayan bir fəaliyyət kimi qəlbin öz dərin tələbatından irəli gəlir. Yaradana aparan yol, insanın özünüdərk kamillik yolundan keçir. İskəndərin Yaradana qovuşmaq məqsədi, məhz onun ruhunun xassəsindən irəli gələn bir keyfiyyətdir. Duyğu, ruhda təcrübəyə əsaslanmayan mümkün transsendental bilikləri ağla ötürən bir vasitə kimi Yaradanı duymaq və onunla ünsiyyət saxlayan bir idrak sahəsidirsə, ruh, məhz onların vasitəsilə aşkar olan, fikir, söz və əməllərdə təcəlli olunan bir substansiyadır. Ruh bütün atributlarıyla insanın qəlbində təcəlli olunur. Qəlb isə insanın varlığında qərar tutan qeyri-cismani bir məkandır ki, insan onunla ilahi həqiqətə çatmağa



müvəffəq olur. Məhz Məcnunun və Leylinin elmi biliklər əldə etmədən qəlb yolu ilə qazandıqları ilahi bilik, onları ilahi həqiqətə qovuşdurdu. Onların qəlbi bəsirət ilə ilahi həqiqətin şahidi oldu. Dünya onlara sığdısa, onlar dünyaya sığmadı. Nəfsdən azad olan aşiqlərin qəlbi varlığı bütün çalarları ilə müşahidə etdi, eşqdə ucaldıqca ilahi sifətlər bir daha onlara aydın şəkildə aşkar oldu. Buna görə də, Leyli Məcnunda özünü, Məcnun da özündə Leylini kəşf etdi. Onların gözündə çoxluq tamlaşdı, eşq, aşiq və məşuq, elm, alim və məlum bir oldu, hər şey vəhdətdə göründü. Nəhayət, eşq yolu ilə varlığın yanlız «Mütləq Varlıq» olduğu sübut olundu:

Sənsən hər varlığın içində Sənsən,
Bütün canlılara həyat verənsən.

Nizami yaradıcılığında insanın kamilləşməsi yolunda ağlın da önəmini xüsusi vurğulayır. İnsanın kamilləşməsi yolunda əsas ruhi atributlardan biri ağıldır. Ağıl insana dünya işlərində xeyiri şərdən seçmək üçün bir vasitədir. İnsan məhz ona malik olan yeganə varlıqdır ki, onun varlığı üçün də məsuliyyət daşıyır. İnsanın ruhundan intuisiya vasitəsiylə gələn hər hansı bir bilik məhz ağlın vasitəsilə rasionallaşır və gerçəkləşir. Yəni ruhani Substansiyanın atributları ağılda inikas olunduqdan sonra maddi gerçəkliyə çevrilir. İlahi bilik ruh vasitəsiylə duyulursa, ağıl vasitəsiylə rasionallaşır. Ədibə görə ağlın da mənbəyi İlahi Yaradandır.

Ağıl və müdrikliyin qədim yunan fəlsəfəsində hansı yeri tutduğu məlumdur. Sokratla sofistlərin bir-biri ilə mübahisələri məhz bu məsələ ilə bağlı olub. Sokrat bəlağətli, pafoslu danışmağı, yüksək natiqlik nümayiş etdirməyi müdriklik hesab etmirdi. O, sofistləri boşboğaz və zəhlətökən adlandırırdı. Sofistlər isə Sokratı müdrik saymırdılar. Yunan fəlsəfəsində Heraklitin Pifaqor haqqında dediyi də müdriklik anlayışına onun münasibətini ifadə edir. «Çox bilmək insana ağıl vermir, belə olsaydı Pifaqor da müdrik olardı». Yəni ağıl, müdriklik heç də çox bilmək demək deyil. Nizaminin fikrinə görə, ağıl insanı heyvandan fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Onsuz insanı ancaq zahirən insan adlandırmaq olar. «İsgəndərnamə» poemasında deyildiyi kimi, Yaradan varlıqlar içərisində ən əvvəl ağılı yaratmış və öz işığı ilə onun gözlərini açmışdır. Bundan sonra əmələ gələn bütün sirlərin açarını ağlın əlinə vermişdir. Ağıl üçün

heç bir şey gizli qalmamış, ondan nə soruşsaq, o sənə yol göstərər.

Ağıl, insan idrakını yanlız məhdud maddi çərçivənin fövqünə çıxara bilmədiyi halda, ağılın ruha açılan gözü yəni bəsirət isə insanı «Mütləq Həqiqət» məkanına ucaldır. Buna görə də, Məcnunun söylədikləri məhdud təfəkkür formasına görə qeyri-normaldır. Məcnuna görə isə cəmiyyətin təfəkkür forması qeyri-normal bir təfəkkürdür. Çünki o özünün daha azad və xoşbəxt olduğunu bildiyi halda, onun ətrafındakılar onu bədbəxt və yazıq olaraq tanıyırdılar. Leyli isə Məcnunla bərabər həmin biliyə malik olan və içində azadlıq eşqi ilə alışıb yanan bir məzlum qadındır ki, öz azadlığını içində basdırmağa çalışdı. Lakin o azadlığı yox, azadlıq onu torpağa basdırdı və Leylini özünə qovuşdurdu.

Nizami Gəncəvi başqaları kimi nəzəriyyəçi-pedaqoq olmasa da, onun əsərlərində təlim-tərbiyə məsələlərinə geniş yer verilmişdir. O öz siyasi-ictimai və fəlsəfi fikirlərini bədii əsərlərində ifadə etmişdir. Onun təlim-tərbiyə probleminə fəlsəfi yanaşması, müasir metodoloji və pedaqoji nəzəriyyədə istiqamətləndirici funksiyanı yerinə yetirə bilər.

Əxlaq onun dünyagörüşündə əsas yer tutur. İnsanın son məqsədi əxlaqlı olmaqdır. Bu yerdə onunla Sokrat arasında müəyyən uyğunluq duyulur. Ancaq Sokratın etik-fəlsəfi təlimi daha mücərrəd xarakter daşıyır, Nizamidə isə əxlaq konkret məzmuna malikdir. Onun əxlaqlı insanı Fərhad kimi cəmiyyət üçün çalışan, xalqının yolunda hər şeyə hazır olan, cəsur, mərd insandır. Nizami bu keyfiyyətlər üçün mücərrəd meyarlar axtarmır. Onun meyarı xalqın verdiyi qiymətdir ("Axırda utanma xəcalətindən"). Onun etik fəlsəfəsi daha praqmatikdir. Bu praqmatizmin əsasında da elmilik durur. Biliyə söykənən əxlaq, sonda xalqa xidmət etməlidir. Yəni şəxsin özündə qalıb, eqoistik mahiyyət kəsb etməməlidir. Şəxsin dikbaşlığına, harınlığına aparan bilik səmərəsizdir. Bilik, mütləq əxlaqi təkamülü təmin etməli və sonda praktik əhəmiyyət kəsb etməlidir.

Nizaminin əsərlərində təlimin ümumiliyi geniş təbliğ olunur. Bu cəhətdən onun qadın təhsili haqqındakı fikirləri diqqəti cəlb edir. O, qız və oğlanların təhsil almasını fərz buyuran islami dəyərlərdən çıxış edərək, təlim işində cinsi ayrıseçkilik etmir. Onun əsərlərində qadın və kişilər sərbəst təlim alır, elmlə məşğul olurlar. Şirin, Leyli, rus qızı Mariya kimi qadınları buna misal göstərmək olar. Məsələn,



elmlərin sirlərini dərindən mənimsəyən Mariya öz müəllimi Ərəstundan elmin sirlərini öyrənərək iksir alimitək məşhurlaşır.

Nizaminin sosial-fəlsəfi fikirlərində müəllimin rolu məsələsi ən mühüm yerlərdən birini tutur. Təlim prosesində müəllim-şagird münasibətlərinin əhəmiyyəti müxtəlif mütəfəkkirlərin diqqət mərkəzində olub. O, müəllim-tələbə münasibətlərinə təkcə öyrədən-öyrənən bağlılığında baxmır. Onun biliyi ilə yanaşı, əxlaqı, insani keyfiyyətləri də böyük rol oynayır. Yalnız nəcib və əxlaqlı insan müəllim ola bilər. Bu ciddi, prinsipial və muasir təsəvvürlərlə səsləşən mövqedir. İndi təlimin etik-mənəvi tərəfi barədə çox yazılır, müzakirələr aparılır. Bu işdə Nizaminin fikirləri kompas rolunu oynaya bilər. "Ağıla nur" və "ürəyə qüvvət" yalnız "tərbiyə, hünər, nəzakət" bir yerdə olduqda əhəmiyyətli təsir verə bilir. Aydın görünür ki, Nizami təfəkkürlə ruhun (mənəviyyatın, hisslərin) vəhdətindən danışır. Onun üçün ifadənin möhkəmliyi ilə əqlin itiliyi bir-birini tamamlayır və bu mənada birinin digərindən ayrı mövcudluğu mümkün deyil. Bunların vəhdətinə isə müəllimin insani keyfiyyətləri ilə yüksək biliyi bir-birini tamamladıqda nail olmaq olar.

Nəticədə aparılmış tədqiqat işinə yekun vurulur, ümumiləşdirmələr aparılır və problemin praktik əhəmiyyətinə toxunulur.

***Dissertasiyanın məzmunu nəşr edilmiş aşağıdakı işlərdə öz əksini tapmışdır:***

1. Nizami Gəncəvinin dünyagörüşündə təlim-tərbiyə və mənəvi dəyərlər haqqında (kitabça), "Nafta-Press" nəşriyyatı Bakı – 2001, **5.ç.v.**

2.Nizami Gəncəvi və qadın məsələsi, Gender mədəniyyəti. "Adiloğlu", nəşriyyatı. Bakı – 2003, səh. 153-162, **0,6 ç.v.**

**3.** Nizami Gəncəvi və «İsgəndərnamə» əsərində kişi – qadın münasibətləri. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, Azərbaycan Fəlsəfə. Cəmiyyəti, «Fəlsəfə» elmi – nəzəri jurnalı, № 1, 2005. «Təknur», Bakı, **0,5 ç.v**

4.Nizami Gəncəvi yaradıcılığında təlim – tərbiyə məsələləri. Azərbaycan Milli Elmlər Akademiyası, Folklor İnstitutu, Elmi Axtarışlar: Folklorşünaslıq; Filologiya, Fəlsəfə, Tarix, İncəsənət və nəzəriyyə aspektləri. Bakı, Səda 2006, XXX. s. 100 – 104**0,** s. 233 – 240, **3 ç.v**

**5.** Политическое и культурное положение в Азербайджане во времена творчества Низами Гянджеви. Российское философское общество.

Труды членов РФО. Выпуск 15, Москва 2008 ЗАО. Московские учебники – СиДиПресс, с. 383–390. **0,5 ç.v**

**6.** Nizami Gəncəvinin fəlsəfəsində kamil insan problemi. Azərbaycan Milli ElmlərAkademiyası, Fəlsəfə və Siyasi-Hüquqi tədqiqatlar İnstitutu, Fəlsəfə Araşdırmalar İctimai Birliyi. «Fəlsəfə» Elmi-nəzəri jurnalı, №1(10) Bakı AMEA, FSHTİ 2008. s. 21 – 27. **0,5 ç.v**

**7.** Nizami Gəncəvinin əxlaqi görüşləri. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. «Elmi əsərlər» Elmi-nəzəri jurnalı, №1 – 2 (13) AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun İnformasiya və Nəşriyyat şöbəsində nəşr olunmuşdur. Bakı, 2009.s. 188 – 194. **0,5 ç.v**

**8.** Nizami Gəncəvinin yaradıcılığında humanizm və özünüdərk fəlsəfəsi. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq institutu, Fəlsəfi Araşdırmalar İctimai Birliyi, YUNESKO-nun Təsis etdiyi "Dünya Fəlsəfəsi Kontekstində İslam Bölgəsi Fəlsəfəsinin Tədqiqi və Tədrisi problemləri" mövzusunda Beynəlxalq Elmi-Nəzəri seminarın məruzələri. Bakı. 2010, "Təknur",. s.185-193, **0,5 c.v.**

**9.** Воспитательные вопросы образования в творчестве Низами Гянджави. «Гілея» журнал науковій вісник. №49.
Национальный педагогический университет имени М.П.Драгомонова Украинская академия наук 2011, стр. 426-431, **0,5 ç.v.**

**10.** Nizami Gəncəvi yaradıcılığında gender məsələsinin qoyuluşu. AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu . "Elmi əsərlər" elmi-nəzəri jurnal №. Fəlsəfə və Hüquq İnstitutunun İnformasiya və Nəşriyyat şöbəsində nəşr olunmuşdur. Bakı, 2015, **0,5 ç.v.**



**Тахмазова Эльмира Алисейран кызы**

## СОЦИАЛЬНО-КУЛЬТУРНЫЕ И НРАВСТВЕННЫЕ ЦЕННОСТИ В МИРОВОЗРЕНИЙ НИЗАМИ ГЯНДЖЕВИ

### РЕЗЮМЕ

В диссертации исследуются социально-культурные идеи в творчестве Низами Гянджеви, которые послужили стимулом для развития общественно-философской мысли на Ближнем Востоке.

Глава **I** диссертационной работы «**Социально-культурные ценности в мировоззрении Низами Гянджеви**» состоит из двух параграфов. В ней предпринята попытка исследования социально-правовых взглядов Низами, которые исходили из двух источников: мусульманско-правовой доктрины и социально-нравственной философии. Для великого мыслителя характерна социально-нравственная аргументация политических и правовых взглядов. Низами дает наставления правителю о справедливости, благожелательном отношении к подданным, гармонии миров, как небесного и социального, так и природного. В его трудах ясно выражается отождествление государства с личностью его главы, важность воспитания государя в духе справедливости, служения благу общества.

Во **II** главе диссертации под названием «**Проблемы совершенного человека, нравственности и образования в мировозрении Низами Гянджеви**» отмечается, что Низами прославлял разум, знания, воспитание исходя из влияния суфизма, и ограничивал сферу познания рамками мира явлений, утверждая непознаваемость божественного мира сущностей. При этом универсальной деятельностью природы Низами считал взаимное "притяжение" ее частей, которое он называл "любовью". В своих произведениях автор в форме нравоучительных притч излагает свои философские и этические взгляды на природу совершенного человека, его телесный и духовный мир, любовь как первопричину бытия, источник творчества, возвышающий человека.

**Tahmazova Elmira Aliseyran**

**WELFARE AND MORAL VALUES IN SIGHT NIZAMI GHANCHAVI**

## SUMMARY

In the dissertation it is investigated welfare ideas in creativity by Nizami Ghanchavi which have served as stimulus for development of public - philosophical idea in the Near East.

Chapter **I** of the thesis "**Socio-cultural values in the outlook of Nizami Ganjav**i" consists of two sections. It seeks to study the social and legal views of Nizami, who came from two sources - Islamic legal doctrine and social - moral philosophy. For thinkers of Azerbaijan the social - ethical argument of political and legal sights is characteristic. It gives manual to the governor about validity, goodwill to citizens, harmony of the worlds heavenly and social, and natural. Basis of validity in this society - moral cleanliness and perfection of his citizens. All members of his ideal city are incorporated into a religious community and sense of the life find in service to the God.

In **II** chapter of the thesis entitled "**Problems of modern man, morality and education in the worldview of Nizami Ganjavi**" outlines that Nizami glorified intelligence, knowledge, education based on the influence of Sufism, and limits the scope of knowledge of the scope of the phenomena of the world, claimed unknowableness divine essence of the world  Nizami glorified reason, knowledge, education proceeding from influence sufism and limited sphere of knowledge to frameworks of the world of the phenomena, asserted agnostic the divine world essences. Thus universal activity of the nature by Nizami counted mutual "attraction" of its parts which it named "love".

In the books the author in the form of moralizing parables states the philosophical and ethical sights at the nature of the perfect person, his corporal and an inner world, love as an original cause of life, the activator of creativity moving to kind acts, ennobling the person.



Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş. H.Cavid pr-ti 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**ТЕХМЕЗОВА ЭЛЬМИРА АЛИСЕЙРАН КЫЗЫ**

# СОЦИАЛЬНО-КУЛЬТУРНЫЕ И НРАВСТВЕННЫЕ ЦЕННОСТИ В МИРОВОЗРЕНИЙ НИЗАМИ ГЯНДЖАВИ

Специальность: 7207.01- социальная философия

**АВТОРЕФЕРАТ**

Диссертации на соискание ученой степени доктора
философии по философии

**БАКУ – 2016**